ULUSUMUN ÜRƏYİNCƏ

BAYRAĞIM

Dalğalanan dan yeridir bayrağım,
Üfüqlərdən üfüqlərə boylanar.
Zirvəsində saxlar onu hər dağım,
Haydı desəm qartal olub haylanar.

İşıqlanar şimşəyiylə yer, səma,
O bir canlı ildırımdır, ildırım.
Gərək onu Günəş kimi daima
Ulduzlardan ulduzlara qaldırım.

Kim endirər ay-ulduzlu bayrağı,
Şölə saçan üç alovlu rəngi var!
Süngüsündə Oğuzxanın mızrağı,
Türküsündə Koroğlunun cəngi var!

Ürəklərdə alovdur o, oddur o!
Ocaq yoxsa alov da yox, od da yox!
Yurddaşlara ulusdur o, yurddur o,
Bayraq yoxsa, ulus da yox, yurd da yox!

1987

TƏKBAŞINA

Ağlaya bilməz igid, gözyaşı bilməz nə demək,
Ulu yurddaşlar inanmaz igidin göz yaşına!
Onun ömrü ulu gerçəkdə bir əfsanə demək,
Yurd yolunda ölümə doğru gedər təkbaşına!

DƏDƏ QORQUD OCAĞI

Yurdumun dörd bucağı
Dədə Qorqud ocağı!
Cənnətin aynasıdır
Ana yurdun qucağı.

DAVRANSANA

Canlılar eşqiylə bir an yansana,
Canlılarda suç bulunmaz, qansana!
Canlılardan düşmən olmaz insana,
Ovçu, sən insan kimi davransana!

O YAR

Halımı özgələr duyarmı ola?
Könlümə başqa gül uyarmı ola?
Yar mənim bağrımı oyarmı ola?
Mənə düşmən olan o yarmı ola?

İMDAD

Ey Zəka, bir şairin ki parlaq istedadı var,
Neyləyir imdadı, istedadı var, imdadı var!

DUYĞULAR

Duyğular var məndə,
Uca dağlar aşacaq.

Saxlanıbdır çəndə,
Sabah aydınlaşacaq.

Sən ağıl versən də,
Dəli könlüm şaşacaq.

Çayı salsan bəndə,
Daşacaqdır, daşacaq!

ÖLMƏZ

Yox, ölməz əsərlər yazan ölməz,
Varlıqda var olmuş ozan ölməz!
Namərdlər ölür, mərdə ölüm yox,
İnsanlıq ölən yerdə ölüm yox.

YABANÇIYA

Sən ey yabançı, konuşma, yabançısan bizə, sus!
Sənin başında nə türkü, nə saz, nə yurd, nə ulus!
Səsində boş bir uğultu, yasaq, yabançı səsin,
Gərək deyil bizə yaltaqlanan yalançı səsin!

GÖY SÖYÜD

Həsrətimdən göyərmişəm göy söyüd,
Umacağım göyün yeddi qatında.
Burda mənim atam yatır, ey söyüd,
Ölüm sənin ayağının altında.

GETMƏZ, QARDAŞIM

Dərdli xalqın dərdi bitməz, qardaşım,
Kimsə yetməz dada, yetməz, qardaşım!
İntiqam istər Azərbaycan bugün,
Böylə gəlmiş, böylə getməz, qardaşım!

QOCALAR

Kim deyir, qocalıq ucalıq deyil,
Qocalıq ucaldar mərdi həyatda,
Dərdi qocaların qocalıq deyil,
Gənclikdir onların dərdi həyatda.

SİRR

Bir könüldə qala bilməz bir sirr,
Heç kəsin bilmədiyi sirr yoxdur.
Söyləyən kimsədə olmuş təqsir,
Dinləyən kimsədə təqsir yoxdur...

QEYRƏT

Qüdrəti illər gətirir insana,
Hörməti insan bəhərindən bulur.
Şöhrəti ellər gətirir insana,
Qeyrəti ancaq hünərindən bulur.

CANLI TÜRKÜ

Söyləməz türkü qartal, ancaq onun
Dağların zirvəsində seyrinə dal,
Duya bilməz həyatda alçaq onu,
Yüksələn canlı türküdür qartal.

TALE

Tale deyilən şey
Zənginlər üçün mey,
Yoxsullar üçün qəm,
Aləm, gidi aləm!

İBRƏT

Dünya olaylarıyla bir ibrət verir bizə,
Dünya bugün məlallı, sabah qalmaqallıdır,
Dünya həyatda nəşə verir, dərd verir bizə,
Dünyadan ibrət almayan insan zavallıdır.

YURD SEVGİSİ

Ağlayar yurd deyə qürbətdə qalan dərddaşlar,
Çağlayar yurd deyə yurddaşlar ilə yurddaşlar.

AYNA

Kimsəni rədd eyləməz,
Durmayanı əyləməz,
Gördüyünü göstərər,
Ayna yalan söyləməz.

ALOV, OD

Tükənər ömrü suda,
Alov aşiqdir oda,
Odu söndürməz alov,
Alova aşiq o da.

HƏYATIN

Sevginin dadıdır dadı həyatın,
Sevgisiz, ölümdür adı həyatın.

NEYLƏR

Bir sürü ulağı ər oğlu neylər?
Bir sürü ulaqdan bir at yaxşıdır!
Koroğlu nə söylər, Koroğlu söylər:
Atların həpsindən Qırat yaxşıdır!

SƏDƏF, İNCİ

Yanır şəfəqləri yer üzərində,
Varlıqda hər şeydən odur birinci.
Həyatın sevdalı dənizlərində
Gönül bir sədəfdir, sevgi bir inci.

DƏRD

Ən ağılsız olanın da olur az-maz dərdi,
İnsanın ağlı çoxaldıqca azalmaz dərdi.
Torpaq üstündə olan kimsəni dərdsiz bilmə,
Torpaq altında qalan kimsənin olmaz dərdi.

KİÇİK ULUSLAR

Kiçik ulusların dərdi böyükdür,
Böyük işğalçılar boynuna yükdür.

QAYĞILI İNSAN

Qəm yemə, qəlbini möhnət sarsa,
Hər qəmin dəfinə fərman vardır.
Harada qayğılı insan varsa,
Orada dərdlərə dərman vardır.

İNSAN ALƏMİ

İnsan eşqiylə şadlanar aləm,
Aləmin zövqü insan aləmidir.
İnsan olmazsa, odlanar aləm,
O cəhənnəmlərin cəhənnəmidir.

SEVMƏZ

Canan səni sevməz deyə öz qəlbini yaxma,
Şeir aşiqisən, çox da ki canan səni sevməz.
Sən şairi sev, şairə sən göz ucu baxma,
Şair səni sevməzsə, bir insan səni sevməz.

YEMƏK-İÇMƏK

Əyyaşın xəyalı içmək, yeməkdir,
Yemək əyyaş üçün içmək deməkdir.

ƏZİZ DOST

Dostsuz olan insanda vəfa olmaz, əziz dost,
Dostun diləyi dosta cəfa olmaz, əziz dost!
Yurddur qəribin zövqü, səfası gecə-gündüz,
Qürbətdə ona zövqü səfa olmaz, əziz dost!

YERLƏŞMƏLİDİR

Böyüyüb yavrular ərləşməlidir,
Yurdda yumruq kimi birləşməlidir!
Yurd məlalı, ulus istiqlalı
Yurddaşın bağrına yerləşməlidir!

KİMSƏ BİLMƏZ

İgid ərlər yenilməz ki!
Nə sirdir, kimsə bilməz ki!
İgidlik məktəbi yoxdur,
İgidlik öyrənilməz ki!

DƏYMƏZ

Röyama girirsən hər gecə, ey gül,
Sənlə görürəm gerçəkdə röya.
Sevginlə dünyada yaşayır könül,
Sənsiz, yaşamağa dəyməz bu dünya.

SUÇLU

Borclu qalma, borclu qalmaq suçlu qalmaqdır, oğul,
Ən böyük suç yer üzündə borclu qalmaqdır, oğul!

TƏSƏLLİ

Ömür bəlli olmaz, gün bəlli olmaz,
Hər kəsin ömründə yaş əlli olmaz!
Əlliyə çatdınmı, yaşadın demək,
Məncə, bundan yaxşı təsəlli olmaz.

YAXŞI

Yaxşılıqdır gözəl insanların ancaq naxışı,
Yaxşı insan gözəl olmuş, gözəl insan yaxşı...

GEYƏCƏK

Yemək-içməksiz olan can yoxdur,
Geyimin aşiqi heyvan yoxdur.
Yeyəcək bulmayan olmuş, ancaq
Geyəcək bulmayan insan yoxdur.

AĞRI

Həyatda bitməyir ölüm çağrısı,
Çox zaman çox yerdə yarır o bağrı.
Məncə, ərlər üçün ən böyük ağrı
Vicdan ağrısıdır, vicdan ağrısı!

DÜNYANIN DƏRDİNDƏN

Dünyaya gələnlər nədən ağlayar?
Dünyaya gələndə gülənmi olmuş?!
Gələn ağlayar da, gedən ağlayar,
Dünyanın dərdindən ölənmi olmuş?!

DÜNYA

Azmı dünya deyə vəcdə gələnlər,
Kim onu tamaşa etmək istəmir,
Dünyada bağrını sitəm dələnlər
Yenə də dünyadan getmək istəmir.

İKİ QANAD

Dostun ikidirsə iki möhkəm qanadındır,
Çox dostu olan bir kişi çox üzlü qadındır.

DƏRDİ VAR

Yer üzündə qana düşən
Qanlıların min dərdi var,
Min dərdi var adlıların,
Sanlıların, min dərdi var.
Yalnız insanların deyil,
Canlıların min dərdi var.

SÖYLƏRƏM

Türkümü şəfqətlilərə söylərəm,
Alqış o ərdəmli həsədsizlərə!
Dərdimi mən dərdlilərə söylərəm,
Söyləmə dərdimi dərdsizlərə!

OLDU

Vəfasız olduğun ki bəlli oldu.
Bir idi dərdim, indi əlli oldu.

YAĞSIN

Yağmur niyə dəryalara yağsın?!
Dəryalara yağmur nə gərəkdir?!
Ya nur niyə səhralara yağsın?!
Səhralara ya nur nə gərəkdir?!
Dəryalara yağsın, dilərəm, nur,
Səhralara yağsın dəli yağmur.

ÇOCUQLAR

Milyonlardır varlıların dövləti,
Çocuqlardır yoxsulların sərvəti.

VİRANƏ

Yıxdın, demə ki püç oldu könlüm,
Viranə olub, uçuldu könlüm,
Viranə xəzinəsiz olarmı?
Viranədə incilər solarmı?

OLMASAYDI

Şairlər könülləri bunca yaz eyləməzdi
Gül kimi gözəllərin gözləri olmasaydı.
Gözəllər şairlərə bunca naz eyləməzdi
Şairlərin gül kimi sözləri olmasaydı.

CANIM ULUSUM

Ulusumdur gözümün nuru olan nurlu yazım,
Yurdumun eşqi ilə çağlayar aləmdə sazım,
Ulusa göz yumanın gözləri şəfqətdən uzaq,
Ulusu görmək üçün gözləri yummaq lazım.

KÖNÜL

Gündüz olduqda şəfəqlər gülər aləmdə, könül,
Açılar gözlər önündə nələr aləmdə, könül!
Gecənin zövqünü hər kəs bilə bilməz, ancaq
Gecənin zövqünü şair bilər aləmdə, könül!

GƏNCLİK

İnsan çocuqluğundan
Gəncliyini gözləyər,
Ömrünün sonunacan
Gəncliyi əzizləyər.

GERÇƏYİN ÖMRÜ

Gerçəyi duymuş ərənlər candan,
Gerçəyin səltənəti düzlükdür.
Gerçəyin sirrini öyrən, Xəndan,
Gerçəyin ömrü ölümsüzlükdür.

HƏQİQƏT

Həqiqət öylə şəfalı, dəvalı dərman ki,
Zəhər qədər acı olsun da, hər gün içməliyik.
O, ömrümüzdə dəyanətli körpüdür sanki,
Gəlib onun üzərindən inamla keçməliyik.

PİS ADAM

Pis adam pis günə düşməz heç vaxt,
Yaxşılar ancaq olurlar bədbəxt.

SEVİNDİRƏN

Ey dostlarına sitəm verən dost,
Ey dostu ədayla dindirən dost,
Ey dostlarına acıq verib də,
Düşmənlərini sevindirən dost!
Qəlbin alışır ikən qisasla
Sondan adam olmaz, olmaz əsla!

OLMAZ

Qızılgül tikənsiz olmaz,
Əsil dost düşmənsiz olmaz.

KEÇƏR

Hər kəsin ömrü bir aləmdə keçər,
Şairin gözləri şəbnəmdə keçər,
İnsanın qəm yediyi dəm də keçər,
Nəşənin keçdiyitək qəm də keçər.

RÜTBƏ

Ərənlər rütbəni vecinə almaz,
Ərlər vəzifədən güc almaz, canım!
Rütbəsi qalxmaqla insan ucalmaz,
Toz göyə qalxmaqla ucalmaz, canım!

GÖZÜMƏ İNANDIM

İkiüzlülərə üz çevirmədim,
Arxamı çevirdim üz-üzə durcaq.
Qulaq doldurana qulaq vermədim,
Gözümə inandım, gözümə ancaq.

YOX CAHANDA

Çoxdur cahanda nadan,
Ağıllı çox cahanda.
İnsan qədər yüksələn,
İnsan qədər alçalan
Bir canlı yox cahanda.

QOCALAR

Qocaların qəlbini zədələyən ölümdür,
Əzrayıl barmağıyla hədələyən ölümdür.

SÖYLƏNƏ-SÖYLƏNƏ

İnsan oğlu bu dünyaya
Gələr əylənə-əylənə,
Həyatın türlü sirrini
Bilər, öyrənə-öyrənə
Yaşa dolub, əldən düşər,
Mələr, keylənə-keylənə
Əzrayılın caynağında
Ölər, söylənə-söylənə.

XOŞBƏXTLƏR, BƏDBƏXTLƏR

Xoşbəxtlər əzəldən ömrə düşgün,
Xoşbəxtlər ömür demir uzundur.
Xoşbəxtlər üçün yüz il də beş gün,
Bədbəxtlər üçün ömür uzundur.

ALQIŞLANMALI

Alçaq quruluşa tərif yazanlar
Ölməli, nəinki bağışlanmalı.
Onun iç üzünü açmış ozanlar
Alqışlanmalıdır, alqışlanmalı!

GÖZLƏRİN, SÖZLƏRİN

Nə şeirlər deyərsən
Mənalı gözlərinlə,
Onları bəstələrsən
Ahəngli sözlərinlə.

GÖRƏN YOX

Çoxlarının gözlərindən yayınar
Çox hikmətli bu varlıqda görən yox.
Çirkin üzlər gözyaşıyla yuyunar.
Gözəllərin gözyaşını görən yox.

SEVGİ SƏRXOŞLUĞU

Bir gözəl əsir olur öz könülxoşluğuyla,
Hansı qadın bayılmaz sevgi sərxoşluğuyla?!

ƏLİNDƏDİR

Hər qadının gözəlliyi könlündədir, dilindədir,
Hər kişinin mutluluğu bir gözəlin əlindədir.

AZĞINLAR

Uğrama leş sökən abdallarla,
Yüksəl enginlərə qartallarla!
Özünü gözlə o quzğunlardan,
Yaxşılıq etdiyin azğınlardan.

ÇAĞLAYA BİLMƏZ

İlhamı olmayan ruha yasaqdır,
Sənət vadisində çağlaya bilməz.
İstedad dağlardan gələn bulaqdır,
Bir kimsə gözünü bağlaya bilməz.

ALÇAQDIR

Alçaqdır o çalsaqqal, baxma qocadır çaldır,
Alçaqları yüksəldir, yüksəkləri alçaldır...

İGİD

Varlı insan o deyil ki malı, mülkü, pulu var,
İgidin yoxsulu yoxdur, yazığın yoxsulu var.

* * *

Kükrəyən dalğa deməzlər köpürən bir ləpəyə,
Ucalan zirvə deməzlər ağaran bir təpəyə.
Dağları andırır üst-üstə duran buzlar da,
Uca dağlar ucalır ən uca ulduzlarda.

AÇILMADI

Alçaqlar ordularla, silahlarla gəldilər,
Yaxdıqca yaxdılar bizi, böldükcə böldülər,
Qan ağlayan çocuqları vurduqca güldülər,
Namərdlərin əliylə nə övladlar öldülər,
Vəhşətli həmlələrlə nə qanlar saçılmadı!
Toplar açıldı, tanklar önündən qaçılmadı!

Düşdük bəlaya, gəlmədi bir kimsə yardıma,
Düşmən qoşun-qoşun qoşaraq düşdü ardıma,
Yoxdur umud sabah da, qovuşmazsam orduma,
Qan ağlayan çağımda bahar gəldi yurduma,
Güllər açıldı, yaslı könüllər açılmadı!
Vəhşətli həmlələrlə nə qanlar saçılmadı!

XANKƏNDİM

Bir gülüstandı, soldu Xankəndim,
Ulayanlarla doldu Xankəndim,
Xan qızı Natəvan ucaltmış ikən,
İstepan kəndi oldu Xankəndim.

GÖZƏL İNSAN

Bir gözəl qız yaramaz bir dəli ceyran kimidir,
Çırpınan odlu könüllər ona heyran kimidir.
Şeri dadsız bir ozan ruhsuz olan can kimidir,
Ən gözəl türkü deyən ən gözəl insan kimidir.

DƏDƏM

Zeynalabdin bəy əzəl şöhrətidir əqrəbamın,
Üzü ağ, alnı açıq oğlu olub el-obamın.
Yeri vardır atasıyla atamın fəxr etsəm,
Ulu yurddaşlar içində yeri vardır babamın!..

DOSTLARLA

Dostların həsrətinə dözməyə yox məndə dözüm,
Dalaram gözlərə dostlar görünən məclisdə.
Dostlar olmazsa, mənim toyda belə gülməz üzüm,
Gülərəm üzlərə dostlar görünən məclisdə.

İNCƏ QADIN

Mənim ən incə sözüm incə adındır, gözəlim,
Bir qadınsan ki, adın incə qadındır, gözəlim!
Duyğusuz bir qadına incə qadın söyləyəməm,
Duyğusuz bir qadının qəlbi odundur, gözəlim!
Mənim ən incə sözüm incə adındır, gözəlim!

* * *

Buludlar toqquşunca cəngə başlar sivri şimşəklər,
Guruldar yıldırımlar, sıldırımlar, nurlanar aləm.
Buludlar toqquşunca uğrayar xülyaya gerçəklər,
Üfüqlər aylanar, sellər coşar, yağmurlanar aləm.

* * *

Yar mənimlə üz-göz oldu,
Aramızda bir söz oldu.

Diləklərim yaralandı,
Yaralarım köz-köz oldu.

Yar mənimlə üz-göz oldu,
Getdi yar, görünməz oldu.

* * *

Hüsnündə həyat var, səsində dad var,
Siz onu ən canlı bir əməl sayın.
İncə bir mələkdir, onda qanad var,
Cənnətdə yaşayır hür Əməl Sayın.

İstanbul, 1984

* * *

Hər mərdin könlündə bir imanı var,
İmanı olmayan mərd ola bilməz.
Dünyada hər dərdin bir dərmanı var,
Dərmanı olmayan dərd ola bilməz.
Ölüm haqq işidir, ölüm dərd deyil,
Həyatda ölümdən qaçan mərd deyil.

* * *

Könlümün həsrətini duymazsan,
Könlümün həsrəti ömrümdən uzun.
Dərdimin söhbətinə uymazsan,
Dərdimin söhbəti ömrümdən uzun.

* * *

Oğullar ucalır ellər içində,
Çör-çöpü kim görür sellər içində,
Şair gülə aşiq bir bülbül kimi,
Tikan gəzənmi var güllər içində?!

* * *

Qalan aləmdə bizimçin nə sevincdir, nə kədər,
Dərdə uymaq da hədər, nəşəyə uymaq da hədər!
Ey Zəka, qəm yemə ki, yoxluq olan varlıqda
Bir həyat var, bir ölüm, böylə gəlib, böylə gedər!..

ARAMIZA

Könlümə o çağlar düşüb,
Gözümdən o bağlar düşüb,
Neçə yol yarpaqlar düşüb,
Çaylar girib, dağlar düşüb,
Göllər keçib aramıza.

Yar yara həsrət olmasın,
Sevinc baharı solmasın,
Baxışlar qəmlə dolmasın,
Keçənlər unudulmasın,
Sellər keçib aramıza.

Umudumu qar bağlayıb,
Ürəyim qubar bağlayıb,
Qolumu o yar bağlayıb,
Yolumu yollar bağlayıb,
İllər keçib aramıza.

Nədir içimdəki sancı?!
Neçin röyalar yalançı?!
Sözləri yasaq, yabançı,
Sevgi düşməni, yalançı
Dillər keçib aramıza.

Ölsün hisləri qabalar,
Yeri olsun xarabalar,
Çabalar canım, çabalar,
Çırağım keçib obalar,
Ellər keçib, aramıza.

DOYMAMAQ

Olarmı ulusu, yurdu duymamaq,
Bu iki sevgiyə candan uymamaq?!
Dünyadan doymamaq deməkdir, qızım,
Ulusdan doymamaq, yurddan doymamaq!

YADIRĞAMAQ

Bir eloğlu dedi ki, yurdum olub Fransa,
Dili yadırğamışam, bunu bilmə asan sən.
Yadırğamaq sözünü yadırğamamısansa,
Dedim, ana dilini yadırğamamısan sən...

YARANMİŞ

Varlıqda bizdən öncə
Aylar, illər yox idi.

Bu varlıqda var olan
Varlıq yoxdan yaranmış.

Günəşli dünyamızın
Yaşı azdır, çox deyil.

Çoxları düşünür ki,
Dünya çoxdan yaranmış.

İnsanların içində
Biri ac, biri toxdur.

Toxmu acdan yaranmış,
Acmı toxdan yaranmış.

Ən qədim yarağımız,
Bilirik, yayla oxdur.

Sazımız, kamanımız
Yayla oxdan yaranmış.

YURDDAŞLARIN SƏSİ

Biz şöhrəti dillərdə gəzən yurdda doğulduq,
Mərd bir ulusun sevgili övladları olduq.

Ən mutlu göründük onun ən parlaq adıyla,
Göylərdə qanad çaldıq, ucaldıq qanadıyla!

Alçaqları qovduq içimizdən, dışımızdan,
Quzğunlara küy düşdü könül çağrışımızdan.

Sərhədlərimiz bərkidi qurbanlarımızla,
Aslan südü içmiş igid oğlanlarımızla!

Yoxdur içimizdə nə çəkinmək, nə də ürkü,
Dağlarda gəzir qoşduğumuz sel kimi türkü.

Tənburla gülər saz, davulun sirdaşıdır ud,
Ölməz, ölə bilməz Atamızdır Dədə Qorqud!

Biz mütluyuq, ərdəmli olanlar bizə eşdir,
Odlarla ucaldıq, odumuz canlı günəşdir.

Torpaqda ulus dağları, yurd daşlayırıq biz,
Dağ cüssəli yurdun ulu yurddaşlarıyıq biz!

İstanbul, 1986

XƏNDANIMA

Bu sənin ulusun, bu vətənindir,
Sən onların olsan, onlar sənindir!
Hər gün gələcəyi düşünmək gərək,
Bu gün gələcəyi düşünənindir.

BU DÜNYA, GİDİ DÜNYA

Bu dünya, gidi dünya,
İlləri yaman keçər.

Öylə bir körpüdür ki,
Üstündən zaman keçər.

Minlərlə insan gəlib,
Minlərlə insan keçər.

Göz açıb, qapayınca,
Gün keçər, dövran keçər.

Dünyadan çirkin, gözəl,
Qorxaq, qəhrəman keçər.

Bu yandan şəfəq sökər,
O yandan duman keçər.

Dərd keçər, dərman keçər,
Ah keçər, aman keçər.

Dünya yalan dünyadır
Deyənlərdən yan keçər.

Atalar gözəl demiş:
İt hürər, karvan keçər...

ƏN YAZIQ İNSAN

Başa sal, "mən yazığam" söyləyəni, qandır, oğul,
Ən yazıq "mən yazığam" söyləyən insandır, oğul!

BƏXTİYAR ŞAİR

Bəxtiyar şair odur ki, yaşayır yurduyla,
Ulu yurdda ucalan bir oğul olmaz bədbəxt!
Ona bir kəs bata bilməz ki, gedər orduyla,
Ulusundan güc alan bir oğul olmaz bədbəxt!

İNSANLIQ

Ən böyük rütbəsi, məncə, atalıqdır kişinin,
Analıq sevgisidir bər-bəzəyi bir qadının.
Şərəfi, şöhrəti, şanı ucalıqdır kişinin,
Bir çiçəkdən də zərifdir ürəyi bir qadının.

BEŞİKDƏN EŞİYƏ

Aləmə göz açdığı gün hər çocuq
Ağlayar, aləm gələ, ay-ay deyər.

Öz atası səslər onu hər sabah,
Öz anası hər gecə laylay deyər.

Ay dolanar türlü rəqəm öyrənər,
Kimsə ona gəl onacan say, deyər.

Sonra bu minvalla keçər qış, payız,
Bir də görərsən özü yaz, yay deyər.

İştahası günbəgün artar onun,
Qaqqa deyər, şirni deyər, çay deyər.

Pay verilən yerdə özü dillənər,
Kim verəcəkdir mənə də pay, deyər.

Bir də duyar ki, böyüyüb, gəncləşib,
Nəşələnər, hallanar, oxqay deyər.

Başqa bir aləmlə dalar aləmə,
Bulmalıyam mən özümə tay, deyər.

Ağlı kəsər hay deyənə hay verər,
Bərkə düşən yerdə mənə hay, deyər.

Yaxşı qanar yaxşı nədir, pis nədir,
Olmalıdır arxada dayday deyər.

Baş ağarar, üz qırışar, yaş keçər,
Bitdi işim, vay dədə, vay, vay deyər...

DÜNYAYA MİN İL SONRA GƏLƏNLƏR

Dünyaya min il sonra gələnlər
Min möcüzə icad edəcəkdir.

Ulduzları gəzdikcə gülənlər
Çağdaşlarını şad edəcəkdir.

Bir milləti bir sədlə bölənlər
Öz yurdunu bərbad edəcəkdir.

İşgəncəni əyləncə bilənlər
Bayquş kimi fəryad edəcəkdir.

Zülmün kökünü yerdə silənlər
Məzlumları azad edəcəkdir.

İnsanlığın uğrunda ölənlər
Viranlığı abad edəcəkdir.

Keçmişləri andıqca ərənlər
Bir gün bizi də yad edəcəkdir!

UĞRAMA

Şıltaq olan insanlığa yasaqdır,
Aman, oğul şıltaqlığa uğrama!
Yaltaqların vicdanları pasaqdır,
Ərdəmli ol, yaltaqlığa uğrama!

Gülşənlərə yabançıdır alaqlar,
Qeyrətləri, ismətləri calaqlar,
Qoltuqlara ağac olur yalaqlar,
Yalquzaq ol, yalaqlığa uğrama!

Bu dünyada min cığır var, min iz var,
İkiüzlü adamlarda min üz var,
Yer üzündə bataqlıq var, dəniz var,
Dənizdə bat, bataqlığa uğrama!

QAR YAĞIR

Qaranlıqda qar yağır,
Qar yağır ağır-ağır.

Üfüqlər ağ, göylər ağ,
Quzeylər, güneylər ağ.

Şaxta, sazaq, toranlıq,
Yaxın, uzaq qaranlıq.

Qar üstündə qaraltı,
Qaranlıqdır qar altı.

Qar yağır çiçək-çiçək,
Nur yağır ləçək-ləçək.

Bir gün bu ağ çiçəklər
Bağlarda güləcəklər.

Qaranlıqda qar yağır,
Sanki ilk bahar yağır.

Qış buxarlanacaqdır,
Yer baharlanacaqdır.

Qaranlıqda qar yağır,
Qar yağır fağır-fağır.

Qaranlıq, ağ qaranlıq,
Qəmdən iraq qaranlıq.

Sanki bir duman ağlar,
Saz ağlar, kaman ağlar.

Qaranlıqdır, qaranlıq,
Qərib bir nigaranlıq.

Qaranlıqda qar yağır,
Qar yağır ağır-ağır.

İstanbul, 1984

* * *

Bu dünya ulu dünya,
Hikmətlə dolu dünya, –
Soruş, öyrən min eldən,
Kim deyir ki, bu dünya
Devriləsi dünyadır?

Bağlıdır məhəbbətə,
Peymana, sədaqətə, –
Qıyma, sovuşsun əldən,
Röyası həqiqətə
Çevriləsi dünyadır.

Dünya evi bir ev ki,
Odu, işığı sevgi, –
Oğul, candan, könüldən
Onu duy, onu sev ki,
Seviləsi dünyadır.

Budapeşt, 1982

OLMAZ, OĞUL

Atanın sözlərini doğru bil, aç gözlərini,
Quruyubdursa, su tökməklə quyu dolmaz, oğul!
Sən qulaq ardına vermə atanın sözlərini,
Atana düşmən olandan sənə dost olmaz, oğul!

SAYILMAZ

Çox da ki, nə yemsiz, nə də susuzdur,
Aslan zooparkda aslan sayılmaz.
İnsanın varlığı yurddur, ulusdur,
Ulussuz bir insan sayılmaz!

KÖNÜLDƏN KÖNÜLƏ

BAYRAĞIMIZ

Övladlarımız duymalıdır ki,
Bayraq o qürubun alıdır ki,
Rəngində şəhidlər qanı vardır,
Cəngində ulus dastanı vardır.
Düşmən dilimizdən, əlimizdən,
Ayrılmaz ömür məşəlimizdən!

UNUTMA

Dilini istəyən istər elini,
Eli olmaq dili olmaqdır, oğul!
El alınmaz qala eylər dilini,
Dili almaq eli almaqdır, oğul!

VER

Yoxdur yer üzündə yerə girmişlər üçün yer,
Alçaqlara əl vermə, salam vermə, acıq ver!

KİŞİLƏR DÖZƏR

Kişilər candan ağrısa,
Ağrıdan bezər, ağlamaz.

Durub yaralı-yaralı
Aləmi gəzər, ağlamaz.

Canını yaxan həsrəti
Canını üzər, ağlamaz.

Ağlamaq yasaq onlara,
Kişilər dözər, ağlamaz.

* * *

Zirvə dumansız olmaz,
Körpə gümansız olmaz.
Qüssə zamansız olmaz,
İnsan amansız olmaz...

QƏLBİMİN BAĞLARI

Mənim könlüm çocuq kimi sənə sarılar, ey Vətən,
Məni səndən ayırsalar, bağrım yarılar, ey Vətən.

Ömrüm qürbətə sürülsə, canım darılar, ey Vətən,
Qəlbimi sənə bağlayan bağlar qırılar ey Vətən!

NƏLƏR GÖRMÜŞƏM

Bu dünyaya göz açandan, ey Rəfiq, nələr
görmüşəm,
Söz güllətək adamların bağrını dələr,
görmüşəm.
Canım, gözüm canlıları yıxan qəlpələr
görmüşəm,
Anasız yavrucuqları quzutək mələr görmüşəm,
Atası varkən, atasız qalan körpələr görmüşəm.

İNSANLIĞIN TARİXİYLƏ

Yurddaşlarım qonaqları xoşlayır,
İnsanlığa yasaqları daşlayır.
Mənim böyük ulusumun keşmişi
İnsanlığın tarixiylə başlayır...